

## O GÜNLƏR POLAD PAŞADAN ALLAHA DANIŞIRDIM

# HƏRƏ ÖZ SƏNGƏRİNİN POLADI OLSA...

İlqar Kamil: "İnsan enerjisi məhduddur, şöhrət adamın xeyli vaxtını alır. Şəxsən mən generalın həyatını oxuduqca, gördüm ki, kişinin yalnız bir dərdi varmış – Vətən! Şöhrət isə o boyda dərdə mane ola bilərdi, məsələ budur".

ƏDƏBİ SÖHBƏT



SÖHBƏTLƏŞDİ:
Fərid Hüseyn
feridhuseyin@kaspi.az

Bir müddət əvvəl şəhid general Polad Həşimov barədə yazıçı İlqar Kamilin "Polad necə bərkidi?" adlı esselər kitabı işıq üzü gördü. Kitab oxucular və ədəbi mühit tərəfindən yaxşı qarşılandı. "Parlaq imzalar" nəşriyyatı tərəfindən çap olunan kitaba oxucu marağını nəzərə alaraq, müəlliflə ədəbi söhbət etdik:

**MİFİK QƏHRƏMANLAR NƏZƏRİYYƏ, REAL QƏHRƏMANLAR PRAKTİKADIRLAR**

● **Əsərinizin adını Nikolay Ostrovskinin əsərinin adından götürübsünüz: "Polad necə bərkidi?" O əsərdə söhbət daha çox qəhrəman Pavel Korçaginin şəxsi faciələrindən gedir. Nə üçün xalq yolunda qurban gedən şəhid general Polad Həşimov haqqındakı kitabınızın adını şəxsi faciələri əsas sayan qəhrəmanla bağlı əsərdən alıbsınız?**

● Yəqin, bu, daha çox mənim bir psixoloq kimi xüsusi dəsti-xəttimlə əlaqəlidir. Belə ki, bəzən müəyyən şəxsi narahatlıqlarla mənə müraciət edən pasiyentlərimi gerçək, dərin və İlahi bir dərdlə tanış etmək kimi bir metodum var. Onlara yeni bir maraqlı dərd təqdim edirəm - dərhal əllərindəkini atırlar yerə. Təəccüblənməyin, insan belə yaradılıb, tez-tez dostlarıma deyirəm ki, inanın, bütün bu xırda-para dərdlərimiz böyük dərdlərimiz olmadığı üçün üzərimizdə belə ağalıq edirlər.

● **Polad Həşimovu mifik obrazlı yox, real qəhrəman kimi tanıtmağın tərəfindəsiniz. Müharibə təhlükəsinin tam sovuşmadığı xalq üçün hansı daha çox lazımdır, mifik obrazlı, yoxsa real qəhrəman?**

*"İnanın, olurdu ki, hansısa yazını yaza-yaza generalı qarşımda hiss edirdim, həyat yoldaşım şahiddir, bəzi məqamlarda hönkür-hönkür ağladığım da olub. Bir dəfə yazmışdım ki, sevdiyiniz insanlardan Allaha danışın, mən danışırdım: mən o günlər Polad Paşadan Allaha danışırdım..."*

● Hər ikisi lazımdır, hərəsinin öz yeri var, lakin məncə, bütün miflərin həqiqət payı var, mif, mənə görə, reallığın şişirdilmiş formasıdır, yoxdan mif yarana bilməz. General Polad Həşimov isə dörd dördlük reallıqdır, mən onu necə mif kimi təqdim edə bilərdim? Üstəlik, kitabı yaza-yaza bu qənaətə gəlmişdim ki, mifik qəhrəmanlar daha çox nəzəriyyə, real qəhrəmanlar isə praktikadırlar və məncə, indiki halda bizə ikincilər daha çox lazımdır.

**NƏ QƏDƏR Kİ, MÖHÜR QOYULMAYIB...**

● **Sizcə, biz qəhrəmanlarımızı nəyə görə onların vəfatından sonra dərindən tanıyırıq? Nədənsə kitabınızda çoxsaylı suallara cavab arasanız da, bu məsələdə dərinə getmirsiniz...**

● Bu məsələ qismən qəhrəmanın özü, xarakteri, xüsusən də, hədəfi ilə bağlıdır, ən azı, Polad Həşimovda belədir; Məsələn, hamı deyir ki, o, şöhrətdən qaçırdı, tanınmaq istəmirdi və s. Bilirsiniz niyə? İnsan enerjisi məhduddur, şöhrət adamın xeyli vaxtını alır. Şəxsən, mən generalın həyatını oxuduqca, gördüm ki, kişinin yalnız bir dərdi varmış – Vətən! Şöhrət isə o boyda dərdə mane ola bilərdi, məsələ budur. Başqa bir məsələ də budur ki, ölüm insan həyatının sonuna qoyulan rəsmi möhürdür, nə qədər ki, möhür qoyulmayıb, insanın yaşadığı həyat tərzi etibarsızdır, nədən ki, insan dəyişkəndir, dönükdür, xəyanət edə bilən varlıqdır – hətta bəzən öz yaratdığı həqiqətə belə! Yəni əslində, xalq qəhrəmanını ölməzdən əvvəl də tanıyır, sadəcə məktubunun möhürlənməsini gözləyir və bu, haradasa təbiidir.

**HÖNKÜR-HÖNKÜR AĞLADIĞIM DA OLUB**

● **Kitabın bəzi hissələrinin Polad Həşimovla sanki dialoq kimi yazılması barədə fikirlərinizi öyrənmək istəyərdim...**

● Doğru duyumdur, bilirsiniz, başqa yolum yox idi, təsəvvür edin, həyatda bir dəfə belə görmədiyim şəxsiyyət haqqında kitab yazırdım, onu gözümün önündə canlandırmalı, hamıdan əvvəl özüm üçün portretini cızmalı idim. İmam Əlinin məşhur sözü var, deyir, mən görmədiyim Allaha ibadət edə bilmərəm, mən də görmədiyim adam haqda yaza bilmədim. Lakin mən onu gördüm və bəzi esselərdəki dialoqlarımın hikməti bu görüşü daha canlı etmək idi. İnanın, olurdu ki, hansısa yazını yaza-yaza generalı qarşımda hiss edirdim, həyat yoldaşım şahiddir, bəzi məqamlarda hönkür-hönkür ağladığım da olub. Bir dəfə yazmışdım ki, sevdiyiniz insanlardan Allaha danışın, mən danışırdım: mən o günlər Polad Paşadan Allaha danışırdım...






## Bu kitabı xalqın dilində yazmışam

● **Bu kitabda Polad Həşimovun kimliyini açmaqda həddən artıq dini motivlərdən, şəxsiyyətlərdən, hadisələrdən, hədislərdən, "Qurani-Kərim"dən bəhrələnməyiniz və bunu əks etdirməyə çalışmanız nə ilə bağlıdır?**

"Həddindən artıq dini motivlər" deyirsiniz, siz 44 günlük zəfər döyüşü günlərində hərb meydanlarında nə görüb, nə eşitdiniz? Olmaya cəngavərlərimiz Sokratdan sitatlar oxuyur, Platondan aforizmlər səsləndirirdi? Bizim duyduğumuz "Allahu-əkbər", "Ya Allah", "Ya Əli", "Ya Hüseyn" nidaları idi. Bizim gördüyümüz, igid əsgərlərimizin geri qaytardığı torpaqlarda ilk ziyarət etdiyi məkanın məhz məscid olması idi! Sizcə, bunlar da həddindən artıqdır? Yoxsa, şəhid Mübariz İbrahimov da öz vəsiyyətnaməsində dini motivlərdən həddindən artıq istifadə etmişdi? Sovet imperializminin qorxusu hələ də canımızdadır-nədir, məsələn, biz hələ də Aşura ilə bağlı motivləri, az qala bir əsr əvvəl yaşamış Qurban Səidin "Əli və Nino"sunda axtarırıq. Xalqın böyük hissəsinin məhərrəmlik ənənəsi var, Sovet yasaqlamışdı, asıb-kəsirdi, qoymurdu, yaxşı, o vaxtın yazıçılarını anlamaq olar, bəs hanı müasir yazıçılarımızın bununla bağlı hekayələri, romanları? Hanı jurnalistlərimizin Aşura günündən sanballı reportajları? Mən bircə Mirmehdi Ağaoğlunun gözəl yazısını xatırlayıram, varsa, deyin, məmnuniyyətlə oxuyum. Mən bu kitabı bir müsəlman oğlu kimi, xalqın dilində yazmışam, başqa da heç bir niyyətim olmayıb.